**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# SƏRƏNCAM

**14 aprel 2026-cı il** **10-1/3-3-14/2026**

## İngilis dilində “Azərbaycan” adının tələffüz forması, eləcə də “Qarabağ” adının yazılış forması barədə

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş 2026-cı il 12 mart tarixli məktubda qeyd edilənlərin Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşları və üzvləri tərəfindən icrasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatasının əməkdaşlarına, Palatanın Şurası yanında komitələrin və komissiyanın rəhbərlərinə, auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, beynəlxalq yazışmaların aparılması, habelə beynəlxalq tədbirlər zamanı ingilis dilində “Azərbaycan” adının tələffüz forması, eləcə də “Qarabağ” adının yazılış forması bu sərəncama əlavə edilmiş məlumata əsasən istifadə edilsin (məlumat əlavə olunur).
2. Auditorlar Palatasının Daxili auditoruna (Ş.Əsgərova) tapşırılsın ki, üç gün müddətində Palatanın əməkdaşlarının bu məlumatla tanış olmalarını təmin etsin.
3. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu sərəncamın və məlumatın mətnlərinin Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın rəhbərlərinə, auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara göndərilməsini və Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/n%2FOcycOychX0TAEKlK0FlwfJMkcIC8nQ6aYPXM1mOSg%3D